

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 aprel 2022-ci il №33 (2644) https://mod.gov.az Qiymәti 30 qəpik


# Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin “N” saylı hərbi hissəsində olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olub.*

AZƏRTAC xəbər verir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi hissənin şəxsi heyəti qarşısında çıxış etdi.



### Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı

- İyirmi üç il əvvəl ulu öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr yaradılmışdır. Ulu Öndər bu Fərmanı imzalamaqla növbəti dəfə böyük uzaqgörənlik göstərmişdir. Xüsusi Təyinatlı Qüvvələrin yaradılması İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdə də özünü sübut etdi.

1999-cu ildə vəziyyət fərqli idi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün hələ də ümidlər tükənməmişdi. Ancaq buna baxmayaraq, Heydər Əliyevin qərarı əsasında Azərbaycan Silahlı Qüvvələrində xüsusi hərbi birləşmə yaradılmışdır və o gündən bu günə qədər xüsusi təyinatlılar böyük və şərəfli yol keçərək, Vətən müharibəsində böyük qəhrəmanlıq göstərərək tarixi Zəfərimizin əldə olunmasında xüsusi rol oynamışlar.

Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin səbəbləri aydındır. O vaxt nizami ordu yox idi, ordu quruculuğu aparılmırdı, ölkə rəhbərliyində olan şəxslər isə öz vəzifə borcunu yerinə yetirə bilməmişdir. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi və 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Beləliklə, bizim torpaqlarımızın işğalı əfsuslar olsun ki, reallığa çevrilmişdir.

Ulu Öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başlamışdır və illər keçdikcə ordumuz öz gücünü artırmışdır. Bunu biz işğal dövründə müxtəlif zamanlarda görmüşük, o cümlədən Aprel döyüşlərində. Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir. Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq. Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu.

Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycan xalqı öz ordusuna dayaq oldu, arxa oldu, bütün Azərbaycan vətəndaşları birləşdi, bütün dünya azərbaycanlıları birləşdi. Bir yumruq kimi birləşdik və düşmənə elə sarsıdıcı zərbələr endirdik ki, bu günə qədər də özünə gələ bilmir. Ermənistan ordusu 44 gün ərzində tamamilə məhv edilmişdir. Ermənistan ordusunun qalıqları bu gün Bakının mərkəzində, Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Vaxtilə Ermənistan rəhbərliyi bizi yeni müharibə ilə hədələyirdi. Deyirdilər ki, əgər Azərbaycan hərbi yolla bu məsələni həll etmək istəsə, erməni tankları Bakının küçələrində olacaq. Bəli, erməni tankları Bakının küçələrində oldu, biz onları məhv edilmiş vəziyyətdə gətirdik. İndi o tanklar, digər toplar və texnika Hərbi Qənimətlər Parkında nümayiş etdirilir.

Biz cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi düşmənin əlindən aldıq, döyüş meydanında bu Zəfəri qazandıq, danışıqlar yolu ilə yox, kiminsə güzəşti ilə yox, qan tökərək, şəhidlər verərək. Bizi irəliyə nə aparırdı? Vətən sevgisi, Vətənə sevgi, düşmənə nifrət! Bax, biz gənc nəsli bu əhval-ruhiyyədə yetişdirmişik, bu əhval-ruhiyyədə bizim ordumuz yetişib və ordumuzun ən döyüşkən birləşməsi olan xüsusi təyinatlılar bu amalla, bu ideya ilə irəliyə gedirdi, öz sinəsini qabağa verirdi.

(Ardı 3-cü səhifədə)

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları xeyirxah əməllərə, birlik və bərabərliyə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynamışdır. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, haqq işi uğrunda mübarizədə qazandığımız şanlı Zəfərlə azad edilmiş dədə-baba yurdlarımızda həyat yenidən dirçəldilir, tarixi-mədəni irsimiz, ibadət yerlərimiz bərpa olunur, məscidlərimizdən azan sədaları yüksəlir.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman şəhidlərimizin ölməz xatirəsini bu mübarək bayram günlərində bir daha ehtiramla yad edir, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə cansağlığı diləyirəm.

Əziz bacı və qardaşlarım!

On bir ayın sultanı Ramazan ayını şükranlıq duyğuları və könül xoşluğu ilə yola salırıq. İnanıram ki, ölkəmizin əmin-amanlığı və tərəqqisi naminə etdiyiniz dualar sayəsində Uca Tanrı öz mərhəmətini və şəfqətini xalqımızdan əsirgəməyəcəkdir.

Bir daha hamınıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Allah orucunuzu qəbul etsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı şəhəri, 29 aprel 2022-ci il

# Prezident İlham Əliyev NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Xavyer Kolomina NATO-nun Baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yens Stoltenberqə çatdırmağı xahiş etdi.

Görüşdə dövlətimizin başçısının ötən ilin sonunda NATO-nun mənzil-qərargahına səfəri və səfər çərçivəsində Baş katiblə görüşü, həmçinin Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlandı. Eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında ölkəmizin iştirakı qeyd edildi.

Söhbət zamanı postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi, enerji təhlükəsizliyi, regional təhlükəsizlik ilə bağlı məsələlər və Azərbaycan-NATO əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının müdafiə nazirinin Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik, bərabərlik rəmzi olan Ramazan bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətlərinizdə uğurlar arzulayıram.

İslami dəyərlərin qorunduğu ölkəmizdə hər il dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Ramazan bayramı insanlar arasında bərabərliyi, birliyi daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə təcəssüm etdirir.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərlərimizi yüksək tutaraq adət və ənənələrin qorunub saxlanmasını reallığa çevirdi. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu xarici və daxili siyasət nəticəsində dövlətçiliyimizin iqtisadi dayaqları möhkəmlənib. Azərbaycan demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər qazanıb. Dövlətin inkişafında prioritet istiqamətlərdən hesab edilən ordumuzun hərbi qüdrətinin gündən-günə artırılması məqsədilə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artaraq, xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatmışdır.

Ermənistan silahlı birləşmələrinin törətdiyi irimiqyaslı təxribatlara qarşı rəşadətli Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatlarında - 44 günlük Vətən müharibəsində əsgər və zabitlərimizin göstərdiyi qəhrəmanlıqlar, fədakarlıq nümunələri sayəsində 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız azad edildi. Müzəffər Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, qətiyyətli addımları, ordumuzun gücü sayəsində düşmən üzərində parlaq Qələbə qazandıq, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Bu gün rəşadətli Azərbaycan Ordusu işğaldan azad etdiyi ərazilərdə öz mövqelərini daha da möhkəmləndirərək, ölkə Prezidentinin rəhbərliyi altında başlayan genişmiqyaslı yenidənqurma və bərpa-quruculuq işlərinə öz layiqli töhfələrini verməkdədir.

Azərbaycanın suverenliyinin, müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi Ramazan bayramı ərəfəsində dərin hörmət və ehtiramla yad edirik. Eyni zamanda, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, bu müqəddəs Ramazan bayramı gəlişiylə ailələrinizə firavanlıq, xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Ramazan bayramınız mübarək!

**General-polkovnik**
**Zakir HƏSƏNOV,**
**Azərbaycan**
**Respublikasının**
**Müdafiə naziri**

# Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasından 23 il ötür



Bu gün Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yaradılmasından 23 il ötür.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Xüsusi Təyinatlı Qüvvələr 1999-cu il aprelin 30-da yaradılıb. Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri müstəsna rol oynayıb. Bundan başqa, Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə ABŞ, Türkiyə və Pakistanda keçirilən yarışlarda yüksək nailiyyətlər qazanıblar.

2016-cı ilin aprelində baş vermiş döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrin bölmələri iştirak ediblər. Döyüşlər zamanı düşmənin çoxsaylı canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də Xüsusi Təyinatlı Qüvvələr böyük şücaət göstəriblər. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşüb.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir.

Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Hikmət Mirzəyevdir.

# Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olub





(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Silahlı Qüvvələrinin tarixi Zəfəri bizim tariximizdə əbədi qalacaq. Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Bu sevinci bizə bəxş edən bizim övladlarımız, əsgər və zabitlərimiz olub. Bütün Silahlı Qüvvələr bu Qələbənin əldə olunmasında öz dəyərli töhfəsini vermişdir və cəmi 44 gün ərzində tarixi Zəfər əldə olundu, düşmən bizim qabağımızda diz çökdü və məcbur oldu öz əli ilə kapitulyasiya aktına imza atdı. Bu, tariximizin və mənim həyatımda bəlkə də ən yaddaqalan, ən sevincli, ən qürurlu anlardan biridir, bəlkə də birincisidir. Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir.



Xüsusi təyinatlıların Vətən müharibəsindəki Qələbəmizdə çox böyük payı var. Mən Ali Baş Komandan kimi bunu bilirəm, bu barədə Azərbaycan ictimaiyyətinə də öz sözlərimi demişəm. Bütün Azərbaycan xalqı bunu bilir və düşmən də bunu bilir. Müharibənin ilk günlərindən kəndlərimizin azad olunması düşməni sarsıtdı. Onlar inanmırdılar ki, Azərbaycan Ordusu beş-altı müdafiə xəttini öz sinəsi ilə yararaq, qan tökərək, şəhidlər verərək tarixi Zəfər əldə edə bilər. Onların hələ də ümidləri var idi ki, kimsə bizi dayandıracaq, kimsə bizə təzyiq edəcək və biz o təzyiqə məruz qalaraq öz Zəfər yürüşümüzü dayandıracağıq. Mən demişdim, heç nə və heç kim bizi dayandıra bilməz, biz sona qədər gedəcəyik, düşməni sona qədər torpaqlarımızdan qovacağıq və düşmən kapitulyasiya aktını imzalayandan sonra müharibə dayana bilər, belə də oldu. Sözümüzə yenə də sadiqlik göstərmişik. İlk günlərdən Ordumuz irəliyə gedirdi, bir dəfə də olsun geriyə addım atmamışdır. Ermənistan ordusunda özlərinin etiraflarına görə, on mindən çox fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Budur Azərbaycan xalqının mənəvi keyfiyyətləri, budur milli ruhumuz, Vətən sevgisi. Bizi irəliyə aparan Vətən sevgisi idi, ancaq, eyni zamanda, hazırlıq, peşəkarlıq idi.

Bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər. Digər hərbi birləşmələr ilə birlikdə şəhər və kəndlərimizi azad edən xüsusi təyinatlıların rolunu mən xüsusilə vurğulamaq istəyirəm. Uğurlu əməliyyatlardan sonra yolumuz Şuşaya açıldı. Yolumuz deyəndə, o yol yox idi. Uğurlu Hadrut əməliyyatından sonra, - hansı ki, Ermənistanda fərarilərin sayını kəskin artırmışdır, - onlar inanmırdılar ki, biz o istiqamətdə gedəcəyik. Onlar bizi başqa yerlərdən gözləyirdilər. Amma bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə. Dərələrdən, meşələrdən, cığırlardan keçərək istiqamət Şuşaya idi. Mən müharibə zamanı demişdim, Şuşasız bizim işimiz yarımçıq qalacaq. Müharibənin ilk günündən son gününə qədər hədəfimiz Şuşanın, bizim Qarabağımızın tacı olan əziz şəhərimizin erməni tapdağından azad olunması idi və buna nail olduq, buna siz nail oldunuz, xüsusi təyinatlılar nail oldu. Neçə gün yorulmadan, əlində yüngül silahlarla o dərələrdən, meşələrdən keçərək Şuşaya yaxınlaşdı bizim igidlərimiz. Yol boyunca bir çox kəndi azad etdi, qan tökdü, şəhidlər verdi, amma dayanmadı, irəliyə getdi. Bu gün Şuşaya gələn hər bir insan, sadəcə olaraq, məəttəl qalır - bu alınmaz qalanı Azərbaycan övladları necə aldılar. Hər dəfə Şuşaya Zəfər yolu ilə gedəndə hər bir insan bu haqda fikirləşir. Son vaxtlar artıq Zəfər yolu ilə Şuşaya gedən insanların sayı həddindən artıq çoxdur, həm Azərbaycan vətəndaşları, həm xarici vətəndaşlar. Ondan sonra mənimlə təmaslar əsnasında qeyd edirlər ki, siz Azərbaycanda belə qısa müddətdə bu yolu necə çəkmisiniz? Mən isə deyirəm, əsas məsələ bu deyil, siz fikirləşin bizim əsgər və zabitlərimiz o meşələrdən necə keçiblər, o yolu onlar açıblar və bu yola mənim tərəfimdən Zəfər adı verilməklə biz bu şanlı Zəfərimizi bir daha tariximizdə həkk etdik.



Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən o sıldırım qayaları görəndə hər dəfə mənim gözlərimin önünə siz gəlirsiniz. Bu alınmaz qala necə alındı - yüngül silahlarla, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə. Qarşıda, yuxarıda, dağın başında təpədən dırnağa qədər silahla, topla, tankla silahlanmış ermənilər sizin qarşınızda aciz idilər.



Həm gücünüz, həm iradəniz, peşəkarlığınız və Vətən sevgisi. Siz öz Vətəniniz uğrunda doğma torpaqda vuruşurdunuz. İşğalçı düşmən isə Azərbaycan torpağında sizin qarşınızda duruş gətirə bilməzdi. Şuşanın azad olunması müharibənin ən parlaq səhifəsidir. Bu gün dünyanın aparıcı hərbi məktəblərində Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar öyrənilir.

İkinci Qarabağ müharibəsindən ilyarım keçib. Hərbi ekspertlər, bu məsələ ilə, münaqişələrlə məşğul olan insanlar bu günə qədər Azərbaycan Zəfəri haqqında danışırlar və mənə bu məsələ ilə bağlı, müharibə ilə, Zəfərimizlə bağlı çoxsaylı suallar verilir. Nə, hansı amillər bu Qələbəni şərtləndirdi? Onların arasında birinci Vətən sevgisidir. Yəni, sizi ölümə aparan, "öldü var, döndü yoxdur" deməyə vadar edən Vətən sevgisi idi və biz bunu nümayiş etdirdik. Bütün dünyaya nümayiş etdirdik ki, biz böyük xalqıq və müharibəni biz ləyaqətlə aparmışıq. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bizim şəhər və kəndlərimizi namərd atəşə tutmuşdur. Yüzdən çox dinc insan, onların arasında uşaqlar, qadınlar bu namərd atəş altında öz həyatlarını itirdilər. Biz isə ləyaqətlə müharibəni apardıq və müharibə zamanı mən deyirdim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Biz mülki vətəndaşlarla heç vaxt vuruşmamışıq və vuruşmayacağıq. Azərbaycan xalqının ülvi keyfiyyətləri bizə imkan verməz və belə də oldu. Bütün dünya bunu etiraf edir ki, azərbaycanlılar ləyaqətlə vuruşdular, kişi kimi vuruşdular, düşməni qovdular, diz çökdürdülər və öz sözlərinə əməl etdilər.



(Ardı 4-cü səhifədə)

# Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olub






(Əvvəli 3-cü səhifədə)

Bu gün isə bölgəmizdə vəziyyət tam fərqlidir. Biz qalib xalq kimi, müzəffər ölkə kimi öz gücümüzü artırırıq. Xüsusi təyinatlıların gələcək fəaliyyəti ilə bağlı bütün göstərişlər verilmişdir. Bu hərbi hissədə mən müharibədən bir il qabaq olmuşdum, xüsusi təyinatlılarla görüşmüşdüm. Bu gün də, bu bayram günündə sizinlə birlikdə olmaq mənim üçün böyük şərəfdir. Mən sizinlə fəxr edirəm. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Ermənistan, Ermənistan silahlı qüvvələri Azərbaycan xüsusi təyinatlılarının adı gələndə titrəməyə başlayırlar. Onların canlarında olan bu xof bu günə qədər çıxmayıb və çıxmayacaq. Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq. Tarixi ədaləti bərpa etdik. Xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirdik. Ancaq biz hər zaman ayıq olmalıyıq. Çünki Ermənistanda bu gün də revanşist qüvvələr baş qaldırır. Ermənistanda bu gün də Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edənlər var. Biz bunu daim diqqət mərkəzində saxlamalıyıq, buna laqeyd olmalıyıq. Məhz buna görə İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğuna əlavə vəsait ayrıldı və necə ki, 2004-cü ildən bu günə qədər bu il və gələn il hərbi xərclər bir nömrəli xərclər olacaq, o cümlədən xüsusi təyinatlıların sayının artırılması artıq reallıqdır. İndi sayla bağlı mən bir şey demək istəmirəm. Ancaq onu deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Xüsusi Təyinatlı Qüvvələrin sayı 2 dəfə artırıldı, indi seçim daha sərtdir və maraq daha böyükdür, müraciətlər kifayət qədər çoxdur. Mənəvi-psixoloji keyfiyyətlər, fiziki hazırlıq, peşəkarlıq və ən önəmlisi Vətən sevgisi bu seçimin əsas şərtləridir.

Digər silahlı birləşmələrimizdə islahatlar aparılır. Xüsusi əməliyyatları aparmaq iqtidarında olan yeni hərbi birləşmələr yaradılır və Azərbaycan Ordusu daha da güclənir. Bu gün bizim Ordumuz müharibə dövründəki ordumuzdan daha da güclüdür, daha da qüvvətlidir.

Mən bir daha sizi Xüsusi Təyinatlı Qüvvələrin yaranmasının 23-cü ildönümü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulamaq istəyirəm. Çıxışımı İkinci Qarabağ müharibəsindəki sözlərlə yekunlaşdırmaq istəyirəm: "Qarabağ Azərbaycandır!"



* * *

**Aparıcı**: Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin mənsubu Müzəffər Ali Baş Komandanımızın qarşısında bundan sonra da Vətənin çağırışına hər an hazır olduqlarını bir daha bəyan etmək üçün dəvət olunur.

**Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin mənsubu**: Cənab Müzəffər Ali Baş Komandan, mən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin görünməyən fədailəri olaraq, "bordo beretlilər" və "mavi beretlilər" adından söz verirəm ki, Azərbaycan dövlətinin və xalqının maraqları naminə düşmənlərimizi hər zaman, hər yerdə məhv etməyə daim hazır olacağıq. Xüsusi Təyinatlı Qüvvələr üçün dövlətimizin və xalqımızın qüruru müqəddəsdir. Vətən uğrunda qanımızdan və canımızdan keçməyə həmişə hazırıq.

Sonra Müzəffər Ali Baş Komandana Azərbaycan xüsusi təyinatlılarının xatirə bereti təqdim olundu.

Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümünə həsr olunmuş təntənəli mərasim hərbi orkestrin ifa etdiyi Qələbə marşı ilə başa çatdı.

## "İşğalla bağlı vəziyyət Ermənistan üçün də, Minsk qrupunun həmsədrləri üçün də məqbul idi"

*BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etdi. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunsa da, 27 ildə onların heç biri icra edilmədi, biz özümüz onları icra etdik.*

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda London beyin mərkəzinin nümayəndəsi, St Andrews Universitetinin professoru Rik Faunun sualına cavabında bildirib.

Dövlətimizin başçısı deyib ki, o qətnamələri qəbul edənlər BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü idi, onlar həm də ATƏT-in Minsk qrupunun həmsədrləri idilər. Onların nə üçün özlərinin qəbul etdikləri qətnamələri icra etməməsinin səbəbi çox aydındır. "İşğalla bağlı vəziyyət onlar üçün - Ermənistan üçün də, Minsk qrupunun həmsədrləri üçün də məqbul idi. Bizə isə məqbul deyildi, biz azlıqda idik", - deyə Azərbaycan Prezidenti qeyd edib.

## "BMT Təhlükəsizlik Şurasının qətnamələrini biz özümüz icra etdik"

*Beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə heç zaman ümid bəsləməyin, çünki onların heç bir dəyəri yoxdur. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdi və həmin qətnamələr əsasən, Ermənistan hərbi qüvvələrinin dərhal ərazilərimizi tərk etməsini tələb edirdi. Buna baxmayaraq, 27 il ərzində qətnamələrin heç biri icra edilmədi, biz onları özümüz icra etdik.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, həmin qətnamələri qəbul edənlər BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrləridir. "Mən onlara "özünüzün qəbul etdiyiniz qətnamələri nə üçün icra etmirsiniz" sualını verdikdə, sualın cavabı çox aşkar idi - işğalla bağlı vəziyyət onlara məqbul idi. Ermənistana da məqbul idi, Minsk qrupunun həmsədrlərinə də məqbul idi, bizə isə məqbul deyildi. Biz real dünyada yaşamalı və bunu başa düşməli idik ki, beynəlxalq icmanın dəstəyi olmayacaq. Təbii ki, güclü orduya, güclü iqtisadiyyata və yeni nəslə ehtiyac var idi, yəni, konkret olaraq ölümə hazır olan insanlara. Qarabağ uğrunda ölənlərin böyük əksəriyyəti heç zaman Qarabağı görməmişdi. Onlar gənc nəslin nümayəndələri, vətənpərvər, Vətəni sevən, yüksək motivasiyalı insanlar idi. Təbii ki, ən vacib məsələ güclü ordunun olması idi və biz buna nail olduq. Bu, Prezident olaraq mənim üçün illər boyu əsas prioritet olub", - deyə Prezident İlham Əliyev vurğulayıb.

# İdeoloji iş və mənəvi-psixoloji təminat şöbələrinin (bölmələrinin) rəisləri və psixoloqlarla seminar keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aprelin 29-da Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ideoloji iş və mənəvi-psixoloji təminat şöbələrinin (bölmələrinin) rəisləri və psixoloqlarla seminar keçirilib.

Seminarda birlik, birləşmə, əlahiddə hərbi hissələrin və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat şöbələrinin (bölmələrinin) rəisləri və psixoloqlar, eləcə də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun, Bakı şəhər Baş Dövlət Yol Polis İdarəsinin, Narkoloji Mərkəzin nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov seminar iştirakçıları ilə görüşüb.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları seminar iştirakçılarının nəzərinə çatdırıb. Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldiyini qeyd edib.

Azərbaycan Ordusunda hərbi intizamın yüksəldilməsi məqsədilə görülən işləri müsbət qiymətləndirən nazir ideoloji iş və mənəvi-psixoloji təminat şöbələrinin (bölmələrinin) rəisləri və psixoloqların bu sahədə üzərlərinə düşən vəzifələrindən danışıb.

Müdafiə naziri şəxsi heyət arasında tərbiyə işində fərdi yanaşma metoduna üstünlük verilməsinin əhəmiyyətini, eləcə də qarşılıqlı münasibətlərin qurulmasında nizamnamələrin tələblərinə ciddi əməl edilməsini xüsusi vurğulayıb.

Hərbi kollektivlərdə sağlam mühitin formalaşmasında ictimai-siyasi və fiziki hazırlıq üzrə məşğələlərin rolundan söz açan general-polkovnik Zakir Həsənov funksional vəzifələrin icrası zamanı şəxsi nümunə və məsuliyyət bölgüsü amillərinə üstünlük verilməsini tövsiyə edib.

Sonra müdafiə naziri tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı konkret göstərişlər verib.

Seminarda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığına, vətənpərvərlik hissinə təsir edən bir çox mövzular ətrafında fikir mübadiləsi aparılıb, mühazirələr dinlənilib və maraq doğuran suallar cavablandırılıb.

# Azərbaycanın müdafiə naziri NATO-nun Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi ilə görüşüb



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aprelin 29-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan NATO Baş Katibinin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Nümayəndə heyətinə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə uyğun olaraq Azərbaycan Ordusunda aparılan islahatlar, eləcə də azad edilən ərazilərdə görülən işlər və Azərbaycan-Ermənistan dövlət sərhədindəki cari vəziyyət barədə ətraflı məlumat verilib.

Müdafiə naziri NATO ilə əməkdaşlıqda əldə edilən uğurlardan danışıb, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən X.Kolomina Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri ilə sıx əməkdaşlığını müsbət qiymətləndirib. Bu əməkdaşlığın Azərbaycan-NATO münasibətlərinə də əhəmiyyətli töhfə verəcəyini xüsusi vurğulayıb.

Sonda ikitərəfli əlaqələrin inkişaf perspektivləri, regiondakı hərbi-siyasi vəziyyət, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Əsgər Mərdəli Aşurov fəxri fərmanla mükafatlandırılıb



Kəlbəcərdə 20-dən çox soydaşımızı mina təhlükəsindən xilas edən qubalı əsgər Mərdəli Aşurovla görüş keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qubadakı Azərbaycan-Türkiyə Qardaşlıq Parkında təşkil olunan tədbirdə Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının rəhbər şəxsləri, hüquq-mühafizə orqanlarının nümayəndələri, şəhid ailələri, qazilər, tələbələr və məktəblilər iştirak ediblər.

Görüşdə məlumat verilib ki, əsgər Mərdəli Aşurov Kəlbəcər rayonunun Günəşli kəndində öz doğma evlərini ziyarət etmək istəyən Kəlbəcər sakinlərini müşayiət edərkən ərazidə tank əleyhinə mina aşkarlayaraq həmin şəxsləri son anda ölümdən xilas etməyi bacarıb. Əgər bu mina aşkar edilməsəydi, yolun üzərindən keçmək üçün yaxınlaşan avtobusu partlada bilərdi. Həmin vaxt avtobusda iyirmi nəfər vardı. Əsgər Mərdəli Aşurov bu qəhrəmanlığına görə mükafatlandırılaraq, nümunəvi xidmətinə görə məzuniyyətə göndərilib.

Çıxış edənlər bildiriblər ki, Azərbaycan əsgəri işğal olunan Vətən torpaqlarını azad etdiyi kimi, oraya qayıdan insanların təhlükəsizliyini də təmin etməyi bacarır.

Tədbirdə əsgər Mərdəli Aşurova Quba Rayon İcra Hakimiyyəti və YAP Quba rayon təşkilatı tərəfindən fəxri fərman, eləcə də qiymətli hədiyyələr təqdim edilib.

# Azad edilən ərazilərdə dislokasiya olan bölmələrin təminatı yaxşılaşdırılır



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması, həmçinin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər davam edir.

Müdafiə nazirinin müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev yeni inşa olunaraq şəxsi heyətin istifadəsinə verilən infrastruktura baxış keçiriblər.

Bildirilib ki, müasir tələblər nəzərə alınmaqla inşa olunan infrastrukturda şəxsi heyətin bütün zəruri ehtiyacları tam qarşılanıb. Burada qərargah binası, yataqxana, hamam-sanitar qovşağı, ehtiyat qidaların saxlanması üçün ərzaq anbarı, əşya anbarı, qazanxana, ideoloji sinif, xidməti, məişət və silah otaqları mövcuddur. Şəxsi heyətin qidalanması üçün nəzərdə tutulan yeməkxana binası müasir standartlara cavab verən məişət texnikası və inventarla təchiz edilib.

Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Bundan əlavə, hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili üçün idman şəhərciyi salınıb. Ərazidə abadlıq işləri aparılıb, müxtəlif növ ağaclar əkilib.

Nazir müavinləri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı müvafiq göstərişlər veriblər.

Sonra general-leytenant N.Osmanov və general-leytenant Ə.Əfəndiyev şəxsi heyətlə görüşərək onların qayğıları ilə maraqlanıb, hərbi qulluqçuları qarşıdan gələn Ramazan bayramı münasibətilə general-polkovnik Zakir Həsənovun adından təbrik edərək xidmətlərində uğurlar arzulayıblar. Hərbi qulluqçular yaradılan yüksək şəraitə, göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.





Sonda müdafiə nazirinin aidiyyəti üzrə müvafiq tapşırıqları şəxsi heyətə çatdırılıb, xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsinə dair seminar keçirilib



Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsil üzrə ekspertlərin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə ingilis dili üzrə STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsi, test materiallarının moderasiya edilməsi, qarşılıqlı istifadəsi və sınaqdan keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, STANAG NATO-nun standartlaşdırma sənədidir və üzv dövlətlərin qarşılıqlı fəaliyyət tələbinə cavab vermək üçün standartın tam və ya qismən, şərti və qeyd-şərtsiz həyata keçirilməsinə dair razılığını müəyyən edir.



# Qarabağda minatəmizləmə əməliyyatlarına yeni mexaniki maşınlar cəlb olunub

*Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə sağlam və təhlükəsiz yaşam mühitinin yaradılması istiqamətində zəruri tədbirlərin icrasını davam etdirir.*

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, Agentlik tərəfindən həyata keçirilən mina və partlamamış hərbi sursatlardan (PHS) təmizləmə əməliyyatlarında Xorvatiyanın DOKİNG şirkətinin istehsalı olan MV-10 və MV-4 mexaniki minatəmizləmə maşınları iştirak edir. Şirkətlə bağlanmış müqaviləyə əsasən, ümumi olaraq 11 ədəd xüsusi təyinatlı minatəmizləmə maşınının ölkəyə gətirilməsi nəzərdə tutulub. Qeyd edilən maşınlardan artıq 10 ədədi Agentliyə təhvil verilib, 1 mexaniki vasitənin isə bu ilin ilk yarımilliyinədək çatdırılması planlaşdırılır.



Humanitar minatəmizləmə fəaliyyəti zamanı istifadə edilən MV-10 maşınları 3 min metrə qədər məsafədən pultla idarə olunur. MV-4 maşınları üzrə bu məsafə 1500 metr təşkil edir. Maşınlar böyük meyl bucağı və sərt torpaq örtüyü olan ərazilərdə rahat idarə edilir.

Fırlanan zəncir aləti və kultivator eyni vaxtda və ya bir-birindən asılı olmayaraq işləmək imkanına malikdir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə əsasən, Böyük Qayıdış proqramının əsas istiqamətlərindən biri Qarabağ ərazisinin mina və müharibənin digər partlayıcı qalıqlarından təmizlənməsi ilə vətəndaşların təhlükəsiz qayıdışı və dayanıqlı məskunlaşması üçün münbit şəraitin yaradılmasıdır. Bu məqsədlə işğaldan azad edilmiş ərazilərdə humanitar minatəmizləmənin hər üç metodologiyasını tətbiq etməklə genişmiqyaslı minatəmizləmə əməliyyatları icra edilməkdədir.

# “Hərbi xidmət Vətən qarşısında övladlıq borcumuzdur”

*"Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, ordu sıralarına çağırılan gənc əsgərlərin qəbulu davam edir.*



Sərəncamın tələblərinə uyğun olaraq müddətli həqiqi hərbi xidmətə yararlı gənclərin "N" hərbi hissəsində qəbulu prosesini izlədik.

Hərbi hissənin zabiti polkovnik-leytenant Əliheydər Fərəcov gənc əsgərlərin qəbulu, yerləşdirilməsi, eləcə də xidmətə və kollektivə uyğunlaşdırılması prosesinin ciddi nəzarətdə saxlanıldığını bildirdi. Zabit, həmçinin hərbi xidmət keçməyin üstünlüklərindən də danışdı: “Gənclərdə vətənpərvərlik hissinin formalaşmasında, onların cəmiyyətə yararlı şəxsiyyət kimi hazırlanmasında və digər mənəvi keyfiyyətlərə yiyələnməsində əsgəri xidmətin rolu böyükdür. Belə ki, hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda gələcəyin nümunəvi vətəndaşları kimi formalaşır, dözümlülük, möhkəmlik, müxtəlif şəraitlərə uyğunlaşmaq kimi üstün keyfiyyətlər qazanırlar. Komandir heyəti olaraq şahidi oluruq ki, ailədə və təhsil ocaqlarında Vətənə məhəbbət, milli-mənəvi dəyərlərə sədaqət, dövlətinə, millətinə bağlılıq ruhunda tərbiyə olunan gənclərimiz də hərbi xidmət keçməyin vacibliyini dərk edir, Vətən qarşısında borcun öhdəsindən uğurla gəlməyə çalışırlar. Onlar hərbi hissəyə gəldikləri ilk gündən nizam-intizamlı olmağa, tədris olunan hərbi biliklərə dərindən yiyələnməyə səy göstərirlər".



Zabitlə birlikdə çağırışçıların hərbi hissədə qəbulu prosesi ilə tanış olduq. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi çağırışçıları hərbi hissənin nəzarət-buraxılış məntəqəsinə təhvil verir. Gənclərin sevinc, həyəcan qarışıq hisslər keçirdiklərini simalarından açıq-aşkar görmək olurdu. Üzlərindəki təbəssüm Vətən sevgisindən, hərbi xidmətə istəkli olmalarından xəbər verirdi. İlk olaraq çağırışçılar şəxsi heyətin uçotu bölməsinə gələrək qeydiyyatdan keçirlər.

Gizir Şamil Mustafayev bildirdi ki, çağırışçılar adlı siyahılar əsasında yoxlanılır, hərbi biletlərindəki məlumatlar elektron bazaya daxil edilir və müvafiq bölmələrə təyin olunurlar.

Sonra çağırışçılar psixoloqlarla söhbətlərə cəlb edildilər. Şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığının, psixoloji dayanıqlılığının saxlanılması və təmin edilməsi məqsədilə "Silahlı Qüvvələrdə psixoloji işin təşkili və aparılması haqqında Təlimat"ın tələblərinə uyğun olaraq hər bir gənc əsgərlə fərdi söhbət aparıldı və psixoloji testlər keçirildi. Hərbi hissənin psixoloqları kapitan Amil Məhərrəmoğlu, leytenantlar Rüzgar Səlimzadə və Elgiz Sabirli gənclərlə səmimi söhbətlər edərək, xarakterlərini, qayğılarını öyrəndilər. Kapitan Amil Məhərrəmoğlu hərbi xidmətə yeni gələn gənclərlə psixoloji söhbətlərin, testlərin aparılmasının vacibliyindən söz açdı. "Gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlığının qorunması məqsədilə mütəmadi olaraq kollektiv, qrup və fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilir, söhbətlər aparılır. İlkin tanışlıq zamanı onların psixi sağlamlıqlarının qiymətləndirilməsinə, şəxsi keyfiyyətlərinin aşkarlanmasına, hərbi xidmət şəraitinə uyğunlaşdırılmasına xüsusi diqqət yetirilir. Çağırışçılarla apardığımız söhbətlər və testlər nəticəsində onların özünəxas davranış formasının standart və obyektiv dəyərləndirilməsini aparırıq. Onların duyğu, düşüncə, inanc və davranışlarına dair müəyyən məlumatlar öyrənirik. Hal-hazırda yeni gələnlərlə ilkin tanışlıq prosesi gedir. Sonrakı günlərdə isə bu istiqamətdə fəaliyyətimiz mütəmadi olaraq davam edəcək".

Psixoloqlarla söhbət bitdikdən sonra çağırışçılar həkim müayinəsinə yollandılar. Müasir avadanlıqlarla təchiz olunan tibb məntəqəsində ilk olaraq şəxsi heyətin boyu və çəkisi qeydə alınmaqla, tibbi kitabça açıldı. Rentgen aparatı ilə gənc əsgərlərin ağciyərləri və daxili orqanları yoxlanıldı. Stomatoloq, cərrah və terapevt müayinəsi aparıldı. Tibb xidməti polkovnik-leytenantı Kamal Həsənov, ümumiyyətlə, tibb məntəqəsində şəxsi heyətin vaxtaşırı tibbi müayinəsinin aparıldığını bildirdi. "Hal-hazırda hərbi hissəmizə yenicə gələn gənclər ümumi müayinədən keçirilir, peyvəndlənməsi aparılır və COVID-19 pasportları yoxlanılır. Nümunəvi xidmət üçün sağlamlıq ən əsas şərtdir. Sağlam əsgərin döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlığı da yüksək olur. Biz həkimlər də çalışırıq ki, əsgərlərimiz xəstələnməsinlər. Ona görə də gənclərin səhhətini daim diqqətdə saxlayır, onlarla xəstəlik törədən viruslardan qorunmağın yolları haqqında mütəmadi olaraq maarifləndirici söhbətlər aparır və bölmələrdə dezinfeksiya işləri görürük. Gördüyünüz kimi, tibb məntəqəmiz ən müasir tibbi avadanlıqlarla təchiz olunub. Xidmətə yeni başlayan gənclərin sağlamlığına biz cavabdehik. Kollektivimiz bu mühüm vəzifənin öhdəsindən bacarıqla gəlir".

Həkim komissiyası tərəfindən ümumi şəkildə yoxlanan çağırışçılar əşya anbarına göndərildilər. Burada onlar hərbi geyimlərlə təmin olunduqdan sonra xidmət edəcəkləri bölmələrə təhvil verildilər.



Gizir İlqar Hüseynov növbə ilə çağırışçılara təzə alt və üst geyimlərini təqdim etdi. Onlar hərbi geyim formasıyla tam şəkildə təmin olundular. Zabit Əliheydər Fərəcov bildirdi ki, gənc əsgərlərin qida, geyim, əşya, əmlakla təminatına və digər sosial-məişət şəraitinə ciddi diqqət yetirilir. Hərbi hissəyə yenicə daxil olan şəxsi heyət birinci olaraq geyim, əşya-əmlakla təmin edilərək müasir tələblərə cavab verən əsgər yataqxanalarında yerləşdirildi. Zabit hərbi hissədə bütün təminatların yüksək səviyyədə olduğunu vurğuladı. "Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində şəxsi heyətin bütün təminatları yüksək səviyyədədir. Bu qayğının nəticəsində istər şəxsi heyətin döyüş hazırlığı, istərsə də ruh yüksəkliyinin artırılması və maddi-məişət şəraitinin yaxşılaşdırılması üçün bütün imkanlar yaradılıb. Hərbi hissəmizdə ən müasir avadanlıqlarla təchiz olunmuş yeməkxana, yataqxana, tibb məntəqəsi, hamam və camaşırxana fəaliyyət göstərir. Həmçinin əsgər yataqxansında ideoloji, xidməti, tədris, məişət və istirahət otaqları əsgərlərin istifadəsinə verilib. Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti onların əsgəri xidmətlərini uğurla keçməsinə zəmin yaradır. Belə şərait xidmətə yeni başlayan gənclərin gələcəkdə bacarıqlı əsgərlər kimi formalaşmasında xüsusi əhəmiyyət kəsb edəcək".



Lazımı əşyalarla təmin edilən gənclər bölmələrə təhvil verilir, orada çağırışçıların saçları səliqəyə salındıqdan sonra hərbi formalarını geyinib xidmətə başlayırlar.

Günün nizam qaydası ilə tənzimlənən fəaliyyətlərində onlar sıra hazırlığı məşğələlərində iştirak edir, andiçmə mərasiminə hazırlaşırdılar.

...Gənc əsgərlərin sıra hazırlığı məşğələsini izlədik. Təcrübəli gizir Anar Həsənov onlara nizam-intizamlı olmağı, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməyi tövsiyə etdi. O, qeyd etdi ki, məşğələlərdə əsgərlərə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq dərslər keçirilir, sıra hərəkətlərini və yerişini, əsgəri salamlaşma qaydalarını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, yuxarı rəislərə yaxınlaşma qaydalarını, eləcə də digər elementləri öyrədirlər. Əvvəlcə sıranın müqəddəsliyindən danışan gizir nizam-intizamın sıradan başlandığını bildirdi. "Ordu quruculuğunda daim diqqətdə saxlanılan məqamlardan biri də şəxsi heyətin nizam-intizamlı olmasıdır. Nizam-intizam isə ən əvvəl sıradan başlanır. Xidmətə gələn gənclərin hərbi həyatla ilk tanışlığı da məhz sırada olur. Sonrakı xidməti dövrlərində də əsgərlərin gündəlik fəaliyyətləri arasında sıra hazırlığı mühüm yer tutur".

Müşahidə etdik ki, əsgərlər də verilən komandaları cəld yerinə yetirərək öyrədilənləri mənimsəməyə can atırdılar.

Gənc əsgərlərdən İlkin Həşimli, Əvəzağa Səfərov, İlham Əliyev, Pirəhməd Hüseynov və digərləri ilə həmsöhbət olub, təəssüratlarını öyrəndik. Onlar ilk dəfə hərbi forma geyinib sırada dayandıqları günün yaddaşlarına əbədi həkk olunduğunu bildirdilər. Hərbi xidmətin onlar üçün Vətən qarşısında övladlıq borcu olduğunu qeyd etdilər. Komandir heyətinin diqqət və qayğısından, mehribanlığından, hərbi hissədəki şəraitdən razılıq etdilər. Qüdrətli dövlətimizlə, Müzəffər Ali Baş Komandanımızla və rəşadətli ordumuzla qürur duyduqlarını dedilər. Qalib ordunun adına layiq, bacarıqlı əsgərlər olub, torpaqlarımızın keşiyində inamla dayanmaq amalı ilə xidmətə gəldiklərini vurğuladılar.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Azərbaycançılıq məfkurəsi milli dövlətçiliyimizin işıqlı yoludur!



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində zabit, kursant, professor-müəllim heyəti ilə Azərbaycan Yazıçılar Birliyinin və Rusiya Yazıçılar İttifaqının üzvü, Prezident təqaüdçüsü, "Qızıl kəlmə" mükafatçısı Sadıq Qarayevlə "Azərbaycançılıq məfkurəsi, vətənpərvərlik və müasir ədəbiyyat" mövzusunda görüş keçirildi.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Əvvəlcə alim-yazıçı Sadıq Qarayevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olundu.

Görüşü açıq elan edən polkovnik Nizami Mövlanov bildirdi ki, azərbaycançılıq ideologiyası milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Müstəqil dövlətin formalaşması üçün ordu, konstitusiya, bayraq, gerb, himn kimi atribut və rəmzlər vacib hesab edilir.

Polkovnik qeyd etdi ki, ulu öndər Heydər Əliyev azərbaycançılıq ideyasını ümummilli ideologiyaya çevirib: "1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın 30 ilə yaxındır müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlamasında dahi şəxsiyyətin misilsiz rolu danılmazdır. Çünki azərbaycançılıq ideologiyası bizə dövlətini, xalqını sevməyi, eyni zamanda, Azərbaycan adlı dövlətin əsl vətəndaşı olmağı öyrədir. Ümummilli lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı yüksək vətəndaşlıq şüuru kontekstində azərbaycanlı olmağın nə qədər şərəfli və məsuliyyətli olduğunu göstərmək baxımından mühüm önəmə malikdir...

44 günlük Vətən müharibəsində də dinindən və dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının vətənpərvərlik nümayiş etdirməsi məhz həmin ideologiyanın xalqımızda təcəssüm tapmasının sübutu idi. Bu baxımdan, qazandığımız möhtəşəm Qələbədə hər bir azərbaycanlının xüsusi töhfəsi olduğunu söyləmək olar".





Alim-yazıçı Sadıq Qarayev çıxışında qeyd etdi ki, azərbaycançılıq konsepsiyası geniş anlayış olub, özündə azərbaycançılıq məfkurəsini, Azərbaycan xalqı və Azərbaycan dövlətçiliyi anlayışlarını, milli-mənəvi dəyərləri, Azərbaycan dili və Azərbaycan ədəbiyyatını, Azərbaycan mədəniyyətini azərbaycanşünaslıq prinsiplərini cəmləşdirir. İstər ölkə daxilində, istərsə də Azərbaycandan kənarda yaşayan, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü naminə fəaliyyət göstərən, onun demokratik dövlət kimi inkişafı üçün çalışan hər kəs azərbaycançılıq ideyasının daşıyıcısıdır.

Görüşdə alim-yazıçı Sadıq Qarayevin "Sarvansız zamanlar", "Sahilsiz təzadlar" və "Sahibsiz kölgələr" kitabları müzakirə edildi.

Çıxış edən millət vəkili Razi Nurullayev, AMEA-nın professoru İsmayıl Kazımov, biologiya üzrə elmlər doktoru Həsən Babayev, ədəbi tənqidçilər Kənan Hacıyev, Əsəd Əsədov, fəlsəfə üzrə elmlər doktoru Fizuli Qurbanov, yazıçı Etibar Yaqubov, taekvondo üzrə Avropa və dünya çempionu Məftun Salmanov, yazıçı Lətifə Əliyeva və başqaları bildirdilər ki, ixtisasca təbiətşünas olan Sadıq Qarayevin elmdəki peşəkarlığı onun məsuliyyətlə çalışmaq bacarığına malik olduğunu göstərir. Ana dilinin milli ruhu yazıçının əsərlərində aydın hiss olunur. Bu, elmi maarifçiliyin təbliği baxımından da maraq doğurur və əhəmiyyətlidir. Azərbaycan ədəbiyyatında milli düşüncənin yaranması, keçdiyi inkişaf yolu və milli ideologiya kimi formalaşmasından bəhs edən bu əsərlər Azərbaycan xalqı var olduqca müraciət olunacaq və öz elmi dəyərini heç zaman itirməyəcək.

Kursantlar müəllifin "Azərbaycançılıq məfkurəsi", "Aləmlərin söhbəti", "And" və s. şeirlərini səsləndirdilər.

Görüşün sonunda alim-yazıçı Sadıq Qarayev müzakirədə yaxından iştirak edənlərin suallarını cavablandırdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Çakır" - yeni nəsil qanadlı raket ailəsi




Türkiyənin "Roketsan" şirkəti quruda, havada və dənizdə istifadə oluna bilən "Çakır raket ailəsi" adlanan yeni nəsil qanadlı raketinin nümayişini keçirdi. Qanadlı raketin əsasən suüstü hədəflərə, strateji quru hədəflərinə və terrorçuların sığındığı ehtimal edilən mağaralara qarşı tətbiq edilməsi nəzərdə tutulub.

"Çakır" raketi pilotsuz uçuş aparatlarından, təyyarə və helikopterlərdən, həmçinin təkərli nəqliyyat vasitələri və suüstü platformalardan atıla bilir. Müasir texnologiya əsasında yaradılan və güclü döyüş başlığına malik olan silah quru və dəniz hədəflərinə qarşı əməliyyat aparmaq imkanı yaradır. Raket hədəf üzərində vuruş nöqtəsi seçimi unikal döyüş başlığı ilə hədəfləri yüksək dəqiqliklə məhv etmək qabiliyyətinə malikdir.

"Çakır" müasir və terminal yönləndirmə sistemləri ilə hədəfləri bağlantısı sayəsində raket hədəfə doğru irəliləyərkən istifadəçi seçiminə bağlı olaraq hədəfi dəyişə və tapşırığı ləğv edə bilir.

"Çakır"ın ən diqqətçəkən xüsusiyyətlərindən biri də raketin su səthinə çox yaxın məsafədən uçma imkanı, quruda isə maskalanma qabiliyyəti ilə yanaşı, radaruducu gövdə quruluşuna sahib olmasıdır. Bu xüsusiyyətləri sayəsində raket özünün düşmənin hava hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanması təhlükəsini minimuma endirir.

"Çakır" gəmi əleyhinə raket (IIR, RF, Hibrid), radioelektron müharibə raketi, izləmə raketi (IIR, RF, Hibrid) və sürü sensor izləmə raketi kimi 4 əsas qrupda hazırlanıb. Radioelektron müharibə və kütləvi sensor tipli faydalı yüklərə malik "Çakır" raketləri həm Türkiyədə, həm də dünyada kifayət qədər yeni konsepsiya hesab oluna bilər. Daşıdığı faydalı yüklər sayəsində "Çakır LİR" raketi düşmənin hava hücumundan müdafiə elementlərinin məhv edilməsi və hədəfin imitasiyası tapşırıqlarını yerinə yetirmək bacarığındadır.

Türkiyənin "Kale Arge" şirkəti tərəfindən "Çakır" raketi milli resurslarla hazırlanan KTJ-1750 turboreaktiv raket mühərriki ilə təchiz edilib.

150 kilometrdən artıq atış uzaqlığına malik "Çakır" qanadlı raketinin uzunluğu 3,3 m, kalibri 275 mm, döyüş başlığı 70 kq-dır.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan boksçusu Avropa birinciliyinin qalibi olub



Bolqarıstanın paytaxtı Sofiyada keçirilən gənc boksçular arasında Avropa birinciliyində idmançımız Kənan Babayev qızıl medal qazanıb.

48 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz çempionluq uğrunda mübarizədə əvvəlcə türkiyəli Telet Yağlı, gürcüstanlı Oruc Əhmədov və irlandiyalı Tedi Coysu məğlub edərək finala yüksəlib. O, həlledici mərhələdə polşalı Nikolas Marsel Pavlik ilə qarşılaşıb. Uğurlu seriyasını davam etdirən K.Babayev bu dueldən də qalib ayrılıb - 5:0. Bununla da Kənan Babayev Avropa çempionu tituluna yiyələnib.

Beləliklə, Azərbaycan yığması 40 ölkədən 400-dən çox boksçunun qatıldığı Avropa birinciliyində çıxışını 1 qızıl və 1 bürünc medalla başa vurub. Bürünc medalı komandamızın aktivinə Amin Məmmədzadə (51 kq) yazdırıb.

## Bədii gimnastlarımız Rumıniyada 5 medal qazanıblar



Rumıniyanın paytaxtı Buxarestdə uşaqlar, yeniyetmələr və gənclər arasında bədii gimnastika üzrə 21-ci "Irina Deleanu Cup" adlı beynəlxalq turnir keçirilib. Yarışda ölkəmizi təmsil edən gimnastımız Məryəm Əliyeva topla gümüş, lentlə hərəkətlərin icrasına görə isə bürünc medal qazanıb. Komandamızın digər üzvləri Gövhər İbrahimova gürzlərlə və halqa ilə, Nəzrin Salmanlı isə gürzlərlə çıxışına görə üçüncü olub.

## Şəhriyar Məmmədyarov "Oslo Esports Cup" turnirində Maqnus Karlsenə qalib gəlib



Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov "Oslo Esports Cup" turnirində növbəti görüşünü keçirib.

Şahmatçımız 7-ci turda hazırkı dünya çempionu, norveçli Maqnus Karlsenlə üz-üzə gəlib. Qrosmeysterimiz M. Karlsenə 2,5:05 hesabı ilə qalib gəlib.

Turnirin mükafat fondu 210 min ABŞ dolları təşkil edir.

**AZƏRTAC-ın materialları əsasında**

3-cü dərəcəli kapitan Siracov Sirac Məmmədağa oğluna məxsus MN № 0052653 nömrəli zabitin şəxsi vəsiqəsi və şəxsi nömrəsi A 011717 olan jeton, kapitan-leytenant Fərziyev Ziya Zakir oğluna məxsus MN № 0041775 nömrəli, baş leytenant Axundzadə Ələkbər İbrahim oğluna məxsus MN № 0053638 nömrəli zabitin şəxsi vəsiqəsi və şəxsi nömrəsi A 017308 olan jeton, baş leytenant Bağırov Cəfər İsa oğluna məxsus MN № 0056075 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Baş miçman İsmayılov Şahmalı İbrahim oğluna məxsus SQ № 0024444 nömrəli, miçman Kamilzadə Vüsal Ramiz oğluna məxsus SQ № 0014980 nömrəli, miçman Bəşirov Vüsal Telman oğluna məxsus SQ № 0020158 nömrəli, miçman Məmmədov Rahil Sahibəli oğluna məxsus SQ № 0022792 nömrəli miçmanın şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Xəlilov Vüsal Elxan oğluna məxsus AD № 0038822 nömrəli, kiçik çavuş Cumartov Dair İftixar oğluna məxsus AD № 0019175 nömrəli, kiçik çavuş Nuriyev Salman Fəxrəddin oğluna məxsus AD № 0030049 nömrəli, kiçik çavuş Nurməhəmmədov Ramazan Nurməhəmmədoviçə məxsus AD № 0026458 nömrəli, əsgər Mustafayev Əvəz Yasin oğluna məxsus AD № 0015452 nömrəli və əsgər Ağalarov Mirəli Vaqif oğluna məxsus AD № 0040490 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 532
Nüsxə 4673